# Türk dövlətləri həmişə Azərbaycanın haqq işini müdafiə ediblər

**"Prezident İlham Əliyev TÜRKPA nümayəndə heyətini qəbul edərkən  Azərbaycanın türk dövlətləri ilə bu günə qədər olan münasibətlərinə toxunaraq mühüm məsələlərə dair fikirlərini bildirmişdi. Dövlət başçısı bir daha bəyan etmişdi ki, bizim ailəmiz türk dünyasıdır, başqa ailəmiz yoxdur".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat bildirib ki, Qərb dövlətləri Azərbaycanın Qarabağla bağlı haqqını heç vaxt müdafiə etməyiblər. XX əsrin əvvəllərində Cümhuriyyət elan olunanda Azərbaycana hansı münasibət göstərmişdisə, 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra da eynisini müşahidə etdik. Qərb bir dəfə də olsun tarixi torpaqları işğal olunan Azərbaycanın haqq səsini eşitmədi. Hansı yolla olursa-olsun, Ermənistanı dəstəklədi. "Qərb dövlətləri beynəlxalq tribunalarda Ermənistanı haqlı hesab edərək həm də hərbi cəhətdən ona kömək etdilər. Əksər vaxt da Ermənistana verilən silahların qarşılığında pul almadılar. Bu isə terrorçu dövlətə dəstək verməklə yanaşı, onu işğala daha da həvəsləndirmək idi, - deyə deputat bildirdi.

Deputat qeyd edib ki, Prezident İlham Əliyev qəbulda Azərbaycan və Ermənistan arasında münasibətlərə də toxunub. Sülh müqaviləsinin imzalanması üçün artıq hər cür şəraitin yarandığını vurğulayıb. Ermənistan rəhbərliyi Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü diqqətə çəkib. Son vaxtlarda iki ölkə arasında gedən delimitasiya və demarkasiya prosesi, həmçinin Qazaxın 4 kəndinin geri qaytarılması sülhə yaxın olduğumuzu göstərir. Ermənistan Qərbin diktəsini qəbul etməsə, öz ağlı ilə Cənubi Qafqazın müstəqil dövləti kimi məsələlərə yanaşsa, problem həllini tapacaq. Əslində, Ermənistan Azərbaycanla rəqabət apara, torpaqlarımızda qərar tuta bilməyəcəyini də dərk edir.

A.İsgəndərov vurğulayıb ki, ədaləti və haqqı müdafiə etmək türk dövlətlərinin siyasətinin ana xəttidir. Türk dövlətləri bu günə qədər Azərbaycanın da haqq işini müdafiə ediblər. TÜRKPA-ya sədrliyin artıq Azərbaycana keçdiyini diqqətə çatdıran deputat bildirib ki, ölkəmizin digər təşkilatlarda olduğu kimi, bu quruma sədrliyi də uğurlu olacaq və onun nüfuzunun artırılmasına xidmət edəcək.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 9 iyun, № 121.- S.7.